# Şərqşünaslıq İnstitutunun beynəlxalq əlaqələrinə dair

**Vüqar Məmmədov,**
*filologiya üzrə fəlsəfə doktoru*

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu 2019-cu ildə beynəlxalq əlaqələrini genişləndirib, mövcud əlaqələri möhkəmlədib, əməkdaşlar xaricdə bir sıra beynəlxalq elmi konfranslarda iştirak edib, mötəbər xarici jurnallarda məqalələrini dərc etdiriblər.

Beynəlxalq əlaqələrin bir qolu İnstitutda səfirlər və xarici ölkələrdən gələn elm və dövlət nümayəndələri ilə görüşlərdir.



Fevral ayının 7-də Səudiyyə Ərəbistanının Kral Abdullah bin Əbdüləziz adına Ərəb dilinə xidmət üzrə Beynəlxalq Mərkəzinin nümayəndə heyəti Şərqşünaslıq İnstitutunda olub. Mərkəzin baş katibi dr. Abdullah əl-Vəşminin rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüb. G.Baxşəliyeva qonaqlara Azərbaycanın ərəb ölkələri ilə elmi, mədəni əlaqələrindən söz açaraq, bu əlaqələrin möhkəmlənməsində şərqşünas alimlərin mühüm rolunu qeyd edib. O, rəhbərlik etdiyi institutda ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ərəb dili və ədəbiyyatı ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açaraq, ərəb mənbələrində bir çox xalqların, o cümlədən Azərbaycanın tarixinə dair mühüm məlumatların olduğunu qeyd edib. Direktor müəssisələr arasında əlaqələrin genişləndirilməsinin hər iki tərəfə fayda verəcəyini bildirib. Abdullah əl-Vəşmi təmsil etdiyi mərkəzin fəaliyyəti barədə məlumat verib. O, Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində aparılan tədqiqatları yüksək qiymətləndirib. Sonra Ərəb dilinə xidmət üzrə Beynəlxalq Mərkəzin nümayəndələri Şərqşünaslıq İnstitutunun əməkdaşları ilə görüşüblər. Görüşdə dünyada 22 ölkənin rəsmi dili, həmçinin BMT-nin 6 rəsmi və işlək dillərindən biri kimi beynəlxalq status qazanmış ərəb dilinin qorunub inkişaf etdirilməsində Səudiyyə Ərəbistanının rolundan söhbət açılıb, suallar cavablandırılıb.



Aprelin 19-da Şərqşünaslıq İnstitutunda Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralla görüş olub. Səfir əvvəlcə Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva ilə görüşüb. G.Baxşəliyeva Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələrindən söz açaraq, qədim tarixə malik xalqlarımızın həmişə bir-birinə dəstək olduğunu qeyd edib. Azərbaycan və Türkiyə arasındakı elmi, mədəni əlaqələrdən danışan G.Baxşəliyeva bu sahədə Şərqşünaslıq İnstitutunda çalışan türkoloq alimlərin də mühüm rolunun olduğunu bildirib. Gövhər xanım Şərqşünaslıq İnstitutunda Türkiyə tarixi, iqtisadiyyatı, türk dili və ədəbiyyatı ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açıb. İnstitutda türkologiya sahəsində görülən işlərdən məmnunluğunu bildirən səfir iki ölkə alimlərinin əməkdaşlığının

əhəmiyyətini qeyd edib. Sonra səfir Erkan Özoral şərqşünas alimlərlə görüşüb. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafının əhəmiyyətindən danışan səfir, bunun tarixi köklərə söykəndiyini, eyni millətə, eyni dilə, eyni dinə sahib olan iki xalq arasındakı qardaşlıq münasibətinin əsrlər boyu yaşadığını və bu əlaqələrin hazırda daha da zənginləşdiyini, yeni səviyyəyə yüksəldiyini bildirib. Səfir elmi əlaqələrin inkişafının da hər iki ölkə üçün faydalı olacağını ifadə edib. Sonra Şərqşünaslıq İnstitutunun əməkdaşları türkologiya sahəsində gördükləri işlər barədə səfirə məlumat veriblər.

İyunun 21-də Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva Misir Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Adil İbrahim Əhməd İbrahim ilə görüşüb. G.Baxşəliyeva Azərbaycanın ərəb ölkələri ilə elmi, mədəni əlaqələrindən söz açaraq, bu əlaqələrin möhkəmlənməsində şərqşünas alimlərin mühüm rolunu qeyd edib. Görüşdə Şərqşünaslıq İnstitutunda qarşılıqlı razılaşma əsasında mütəmadi olaraq ərəb dilində dərslərin keçirilməsi qərara alınıb.

İyulun 10-da Şərqşünaslıq İnstitutunun direktoru, akademik G.Baxşəliyeva Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri dr.Həməd bin Abdulla bin Xubeyr ilə görüşüb. Görüşdə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

Çin Sosial Elmlər Akademiyası Dünya İqtisadiyyatı və Siyasəti İnstitutunun Beynəlxalq Strategiya şöbəsinin alimləri Şao Fenq və Vanq Li sentyabrın 20-də Şərqşünaslıq İnstitutunda olublar. Çinli alimlər ilk olaraq Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və İnstitutun Asiya-Sakit okean regionu ölkələri şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Zenfira Şıxəlibəyli ilə görüşüblər. Akademik Gövhər Baxşəliyeva qonaqlara Şərqşünaslıq İnstitutunda aparılan elmi tədqiqatların istiqamətləri barədə məlumat verib və Asiya-Sakit okean regionu ölkələri, o cümlədən Çinlə bağlı tədqiqatların aparılmasına son illərdə başlandığını bildirib. G.Baxşəliyeva İnstitutun Asiya-Sakit okean regionu ölkələri şöbəsində Çinlə bağlı Çin Xalq Respublikasının müasir dövrünün tarixinin öyrənilməsi, ÇXR-nın digər ölkələrlə, o cümlədən Azərbaycan Respublikası ilə mədəni əlaqələri, Çinin iqtisadi inkişaf yolları, milli və xarici siyasəti, beynəlxalq arenada yeri və Azərbaycan Respublikası ilə əlaqələri istiqamətlərində araşdırmaların aparıldığını və 2016-cı ildə yaradılmış şöbədə bu istiqamətdə bir neçə kitab nəşr etdirildiyini bildirib. Gövhər xanım İnstitutun ÇXR-nın Konfutsi İnstitutu ilə müqaviləsi çərçivəsində çin dili daşıyıcısı olan müəllimlərin əməkdaşlara çin dilini tədris etməsini, bir gənc əməkdaşın Nanjinq, digərinin isə Anhoy Universitetinə magistr təhsili almaq üçün göndərildiyinin qeyd edib. İnstitutun Asiya-Sakit okean regionu ölkələri şöbəsinin müdiri,



f.ü.f.d. Zenfira Şıxəlibəyli çinli alimlərə şöbədə aparılan tədqiqatlar, nəşr etdirilən kitablar haqqında ətraflı məlumat verib. Şao Fenq təmsil etdiyi şöbədə bir çox ölkələr,  o cümlədən Azərbaycanla beynəlxalq əlaqələrlə bağlı tədqiqatlar aparıldığını bildirib. Qeyd edib ki, Bakıya gəlməklərində əsas məqsəd də Azərbaycanın iqtisadiyyatını, siyasətini, mədəniyyətini, xarici əlaqələrini daha dərindən öyrənmək istəyidir. Görüşdə qarşılıqlı maraqlandıran suallar cavablandırılıb, fikir mübadiləsi aparılıb. Daha sonra Şao Fenq və Vanq Li Asiya-Sakit okean regionu ölkələri şöbəsində olub, şöbə əməkdaşları ilə görüşüblər və onların araşdırmaları ilə maraqlanıblar.

Səudiyyə Ərəbistanının Məhəmməd İbn Səud Universitetinin beynəlxalq əlaqələr şöbəsinin müdiri Məhəmməd Uteybi dekabrın 12-də Şərqşünaslıq İnstitutunda olub. M.Uteybi əvvəlcə Şərqşünaslıq İnstitutunun direktoru, akademik  Gövhər Baxşəliyeva ilə görüşüb. G.Baxşə-

liyeva Şərqşünaslıq İnstitutunda ərəb ölkələrinin tarixi, iqtisadiyyatı, ərəb dili və ədəbiyyatı ilə bağlı aparılan tədqiqatlardan, nəşr olunan kitablardan söz açıb. M.Uteybi təmsil etdiyi Universitet barədə məlumat verərək, Şərqşünaslıq İnstitutunda ərəbşünaslıq sahəsində aparılan tədqiqatların onda maraq doğurduğunu bildirib. Görüşdə müəssisələr arasında elmi əlaqələrin yaradılmasına dair ilkin razılıq əldə edilib və qarşılıqlı razılaşma sənədinin hazırlanmasına qərar verilib. Daha sonra M.Uteybi Şərqşünaslıq İnstitutunun əməkdaşları ilə görüşüb. M.Uteybi çalışdığı Məhəmməd İbn Səud Universiteti barədə məlumat verdikdən sonra institutun alimlərindən Laura Orucova, Mahir Həmidov, Əmmar Abbasov, Elnur Mustafayev və başqaları səudiyyəli qonağa öz elmi yaradıcılıqları barədə danışıblar. Sonda M.Uteybi şərqşünasları maraqlandıran sualları cavablandırıb.

Beynəlxalq əlaqələrin bir nümunəsi kimi Şərqşünaslıq İnstitutunun təşkilatçıları sırasında olduğu "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun 12 ölkədən, o cümlədən Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir və Səudiyyə Ərəbistanından gələn, eləcə də Azərbaycandan olan alimlərin iştirakı ilə keçirilməsini göstərmək olar. Şərqşünaslıq İnstitutunun iyulun 11-12-də Bakıda Azərbaycan İlahiyyat İnstitutu və İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi ilə birgə təşkil etdiyi simpoziumun açılışında çıxış edən Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə adlandıraraq qeyd edib ki, İslam dini Azərbaycanda yayıldığı vaxtdan dərin kök salmış, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərmişdir.

İki gün davam edən Simpozium "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu", "Qafqazda İslamın yayılması", "Qafqazda multikulturalizm", "İslam sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər, tarixi mənbələr, sənədlər və artefaktlar, mövzu üzrə akademik əməkdaşlıq", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu", "Çar Rusiyasının Qafqazda İslam siyasəti", "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" adlı panellərdə keçirilib.

Şərqşünaslıq İnstitutunun xarici elm və təhsil qurumları ilə səmərəli əməkdaşlığının bir nümunəsi kimi İnstitutun 2 əməkdaşının - filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Bayramovanın və fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Leyla Məlikovanın Misir Xarici İşlər Nazirliyinin nəzdindəki Misir İnkişaf Tərəfdaşlığı Agentliyinin 24 noyabr-23 dekabr tarixlərində Qahirə Universitetinin Ərəb Dilinin İnkişafı və Tədrisi Mərkəzinin əməkdaşlığı ilə qeyri ərəb dilli universitet müəllimləri üçün ərəb dilinin öyrədilməsi sahəsində təşkil edilmiş təlim kursunda iştirakını göstərmək olar. Təlim kursu Qahirə Universitetinin rektoru doktor Məhəmməd Osman əl-Xuşt, Misir İnkişaf Tərəfdaşlığı Agentliyinin baş katibi Mahmud əl-Məğribi, Qahirə



Universitetinin prorektoru doktor Məhəmməd Sami Abdus Sadiq, Pedaqoji fakültənin dekanı doktor İman Haridi və Qahirə Universitetinin Ərəb Dili İnkişafı və Tədrisi Mərkəzinin müdiri doktor Xələf Abdul Mutinin rəhbərliyi altında fəaliyyət göstərib. Bir ay davam edən təlim kursunda Azərbaycanla yanaşı dünyanın on ölkəsindən olan nümayəndə heyəti də iştirak edib.

2019-cu ildə İnstitut əməkdaşları xaricdə 22 dəfə (Türkiyə, Özbəkistan, Qırğızıstan, Tatarıstan, Rusiya, İran, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Əfqanıstan və s.) beynəlxalq elmi konfranslarda məruzə ediblər.

İnstitutun direktoru, akademik Gövhər Baxşəliyeva oktyabrın 23-24-də Türkiyənin İstanbul şəhərində Mərmərə Universitetinin Türk araşdırmaları İnstitutu tərəfindən təşkil edilən Avrasiya şərqşünaslarının konfransında "Rusiya şərqşünaslıq elminin yaranması və inkişafında Azərbaycan alimlərinin rolu" mövzusunda məruzə edib. Akademik Gövhər Baxşəliyeva həmçinin martın 10-14-da Mərakeş Krallığının paytaxtı Rabat şəhərində İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) XIV sessiyasında və digər illik tədbirlərdə iştirak edib. G.Baxşəliyeva martın 13-də İƏT Pİ XIV sessiyasında çıxış edərək, müzakirə edilən məsələlərə münasibətimi bildirib, Fələstin və müqəddəs Qüds əl-Şərif, Suriya, Somali, Əfqanıstan, Mali, Kıprıs, Camu və Kəşmir, Qərbi Trakiya və Dodekanesdə müsəlman azlıqlarının problemi, Myanmada Rohinca müsəlmanlarının vəziyyətinə dair Azərbaycan tərəfinin mövqeyini açıqlayıb. O, Xocalı faciəsi haqqında məlumat verərək, insanlığa qarşı yönəlmiş bu cinayətin səbəblərindən və ağır nəticələrindən danışıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tədbir iştirakçılarını məlumatlandırıb, Azərbaycanın həmçinin 1990-cı illərin əvvəllərində erməni terror təşkilatları tərəfindən törədilən 30-dan çox terror aktına məruz qaldığını, 2 minədək insanın bu cinayətlərin qurbana çevrildiyini iştirakçıların diqqətinə çatdırıb. Daha sonra üzv dövlətlərin təmsilçilərini Azərbaycan nümayəndə heyətinin təşkilatın Rabat sessiyasına təqdim etdiyi haqq işimizi dəstəkləyən iki qətnamə layihəsinə səs verməyə çağırıb. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair" və "1992-ci il Xocalı Soyqırımının qurbanlarının xatirəsinin anılmasına dair" qətnamələr yekdilliklə qəbul edilib.

İnstitutun direktor müavini, akademik Şahin Mustafayev Mahaçqalada "Mirzə Kazımbəy qiraətləri" adlı beynəlxalq elmi konfransında, (26-27 fevral 2019), Tatarıstanda Rusiya Federasiyası Bulqar İslam Akademiyasının "İslam teologiyası və təhsil sistemi" beynəlxalq konfransında (19-20 fevral, 2019), Qırğızıstanda "Mərkəzi Asiya tarixinin aktual problemləri; nəzəriyyə və metodologiya" beynəlxalq elmi konfransında (25-27 iyun 2019), Özbəkistanda "Özbəkistan – böyük yolların qovşağı: imperiyalar, dinlər, mədəniyyətlər" – "Mədəni irs həftəsi" çərçivəsində keçirilən beynəlxalq elmi konfrans (23-26 avqust 2019), Tehranda "İpək Yolu yazılı irsinin tədqiqi və mübadiləsi" – UNESCO-nun təşkil etdiyi beynəlxalq sub-regional toplantıda (3-4 sentyabr 2019), Həmədanda UNESCO-nun İpək Yolu abidələrinin Dünya İrs Siyahısına transmilli seriya nominasiyası Əlaqələndirmə Komitəsinin 6-cı beynəlxalq toplantısında (22-26 sentyabr 2019) iştirak edib.

Ərəb tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, t.ü.f.d. Fərda Əsədov Rusiya Federasiyası Bulqar İslam Akademiyasının islam teologiyasının təhsil sistemində tədrisi məsələlərinə həsr edilmiş beynəlxalq konfransda (19-20 fevral, 2019) "Keçmiş SSRİ məkanı təhsil müəssisələrində islam haqda biliklərin təqdim edilməsində ümumi problemlər və imkanlar", Mahaçqala şəhərində "Mirzə Kazımbəy qiraətləri" beynəlxalq konfransında (26-27 fevral 2019) "Dərbənd-namənin ingilis dilinə tərcüməsində Çin ordusunun Qafqazda xəzərlərlə ərəblərin müharibələrində iştirakı haqqında məlumatlara Mirzə Kazımbəyin şərhlərinə dair", Özbəkistanın Səmərqənd şəhərində "Əsrlərdən gələn işıq" beynəlxalq islamşünaslıq konfransında (25 avqust 2019) "Mərkəzi Asiya türklərinin kimliyində islam aşırımı" mövzularında məruzələr edib, Cənubi Koreyanın Keimuyunq Universite-

tinin 120-illiyinə həsr edilmiş beynəlxalq elmi proqram çərçivəsində tələbələrə "İpək Yoluna nəzarəti uğrunda mübarizədə erkən orta əsrlərin super gücləri (VI-IX əsrlər)" mövzusunda mühazirə söyləyib.

F.ü.f.d. Səadət Şıxıyeva Sivas Üniversitetində "Türk dünyasının mədəniyyət elçiləri: Qazi Bürhanəddin" mövzusunda beynəlxalq simpoziumda (8 noyabr 2019) "Qazı Bürhanəddin və Nəsimi: ideya, məcaz və janr ortaqlığı", t.ü.e.d., prof. Solmaz Rüstəmova-Tohidi Sankt-Peterburq Dövlət Universitetində Asiya və Afrika ölkələrinin mənbəşünaslıq və mətnşünaslığa dair XXX beynəlxalq konqresdə "Rusiya mənbələri Cənubi Qafqazda "İran icması"nın yaradılmasının mənşəyi haqqında (1880-1917)" (19-21 iyun 2019) mövzusunda məruzə ediblər.

T.ü.f.d. Gülər Qafqazlı Türkiyənin İğdır şəhərində Türk Tarix Qurumu və İğdır Universitetinin birgə təşkil etdiyi "XX yüzilliyin ilk yarısında türk-erməni münasibətləri" adlı beynəlxalq simpoziumda (16-18 oktyabr 2019) "I Dünya Savaşı və ermənilərin Osmanlı Dövləti ilə bağlı xəyalları", həmin ölkənin Ağrı şəhərində Ağrı İbrahim Çeçen Universitetinin təşkil etdiyi "Ağrı dağı və Nuhun gəmisi" adlı beynəlxalq simpoziumda (16-18 oktyabr 2019) "Azərbaycan xalqının inkişafında qədim türk qəbilələrinin rolu", yenə Türkiyədə Van şəhərində Beynəlxalq Türkoloji Araşdırmaları simpoziumunda (26-28 sentyabr, 2019) "Ahmed Caferoğlu ilə doktor Abbas Zaman arasında yazışmalar" mövzusunda məruzələr edib.

Sonuncu qeyd edilən Beynəlxalq Türkoloji Araştırmaları simpoziumunda həmçinin t.ü.f.d.Namiq Məmmədov "2002-ci ildə Türkiyədə AKP-nin hakimiyyətə gəlməsini təmin edən əsas amillər" və "2015-ci ildə Türkiyədə parlament seçkilərinin təhlili", t.*ü.f.d. Yaxşıxanım Nəsirova* "XIX əsdrin sonu – XX əsrin əvvəllərində Urmiya, Salmas və Xoy bölgələrində sosial-siyasi durum (Osmanlı arxiv sənədləri əsasında)", *Hüseyn Günəşli* "I Dünya müharibəsində Qarsda erməni zülmü Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin yardım fəaliyyəti" mövzusunda məruzələr ediblər.

F.ü.f.d. Təranə Həşimova Türkiyədə Fırat Universitetinin keçirdiyi beynəlxalq Palu simpoziumunda (10-13 oktyabrda 2019) "Çağdaş İrfan şairi Hüsamettin Septioğlu sənətində klassik Azərbaycan şeirinin izləri" və Özbəkistanda Beynəlxalq uşaq və gənclik ədəbiyyatı simpoziumunda (18 oktyabr 2019) "Azərbaycanda və özbək ədəbiyyatında Vətən mövzusu: milli və Vətən marşlarının şəxsiyyət şüurunun inkişafındakı rolu", fəl.ü.f.d. Leyla Məlikova. İstanbulda Beynəlxalq İslam Fikri İnstitutu və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmiş "MDB ölkələrində İslam fikri: keçmişi, bu günü və irəliləmənin yolları" mövzusunda beynəlxalq forumda (1-5 oktyabr 2019) "XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ziyalı elitasının nümayəndələrinə islam birliyi ideyalarının təsiri" və eyni şəhərdə d-r Fuat Sezginin xatirəsinə Əhməd Yəsəvi Universiteti, İstanbul Universiteti və Mərmərə Universitetlərinin dəstəyi ilə təşkil edilən VIII Beynəlxalq Türkoloji Konqresdə (8-9 oktyabr 2019) "XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan ziyalı elitasının nümayəndələrinə ümumtürk birliyi ideyalarının təsiri" mövzusunda məruzələr ediblər. Həmçinin t.ü.f.d. Əfşan Şəfiyeva Peteburqda akademik B.B.Bartoldun 150 illiyinə həsr olunmuş Asiya və Afrika ölkələrinin mənbəşünaslığına və tarixşünaslığına dair beynəlxalq konqresdə (19-21 iyun 2019) "S.H.Tagızadənin əsərləri İranın modernləşmə tarixinin öyrənilməsində mənbə kimi", i.ü.f.d. Səbinə Nemətzadə Mahaçqalada Dağıstan Dövlət Universitetinin təşkil etdiyi "Müasir Rusiyada İslam və islamşünaslıq" Ümumrusiya islamşünaslıq forumunda (27-28 sentyabr 2019) "Əbru sənətinin türk-islam mədəniyyətində yeri" mövzusunda məruzə ilə çıxış ediblər.

Şərqşünas alimlərin xaricdə nəşr olunmuş məqalələrinə gəldikdə 2019-cu ildə, 3-ü impakt faktorlu olmaqla, ümumilikdə 13 məqalə dərc etdiriblər.